# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər) HÖKÜMƏTİNİN ƏCZAÇILIQ SAHƏSİNDƏ FƏALİYYƏTİ HAQQINDA*)

**Hafiz M. Əliyev, Rafail V. Sadıqov**

*"İstənilənі həqiqət kimi təqdim edərək, tarixi təhrif etmək olmaz"*
Franklin Ruzvelt.

**Açar sözlər**: *Azərbaycan Xalq Cümhuriyyəti, 1918-1920-ci illər, əczaçılıq*

Hər il xalqımız mayın 28-ni Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümünü – təntənə ilə dövlət bayramı kimi qeyd edir. Bu gün, Azərbaycan xalqının tarixində bənzərsiz və əlamətdar hadisə kimi qəbul edilmişdir. Şərq aləmində ilk demokratik dövlət qurumunu yaratmış Azərbaycan Xalq Cümhurriyyəti istiqlaliyyətimizi elan edərək, millətimizin müstəqillik, dünyəvilik və humanistlik əzmini nümayiş etdirmişdir. Çətin, mürəkkəb və gərgin ictimai-siyasi şəraitdə yaranmış və fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin qısa bir müddətdə gördüyü tədbirlər dövlətçiliyimizin tarixində əzəli iz buraxmışdır [1].

Azərbaycan dövlətçiliyi rəmzlərinin qəbulu, dövlət sərhədlərinin müəyyən edilməsi, ana dilimizin dövlət dili elan olunması, irqi, milli, siyasi, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi Azərbaycanın gələcəyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanda ilk dəfə dövlət və hərbi quruculuğu, siyasət, iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əhəmiyyətli işlər görülmüşdür.

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra tariximizin əsl həqiqətlərinin üzə çıxması üçün əlverişli imkan yaranmışdır.

"Azərbaycan Xalq Cümhurriyyətinin 80-illiyinin keçirilməsi" haqqında Azərbaycan Respublikası Prezdenti H.Ə.Əliyevin 30 yanvar 1998-ci il tarixli sərəncamı əsasında yaradılmış Dövlət Komissiyasının qərarı ilə, 1918-1920-ci illərə aid arxiv materialları yeddi cildli sənədlər toplusu nəşr olundu [1].

"Məlumdur ki, xalq üçün, millət üçün humanitar elmlər ən əhəmiyyətlisidir, xalqın, millətin tarixi onun ədəbiyyatının, mədəniyyətinin və elminin tarixidir. Tarix hər bir insana uşaqlığından həyatının sonunadək lazımdır. Tarix elə bir şeydir ki, onun müəyyən dövrlərində hansısa bir siyasi hakimiyyətin, siyasi fikrin səbəbindən ola bilər ki, tarixin bəzi səhifələri ya unudulsun, ya da təhrif olunsun. Ancaq biz indi, son illər tarixi bir daha vərəqləyərkən açıq aydın görürük ki, bunlar müvəqqəti xarakter daşıyır. Tarixi təhrif edənlər, tarixi pozmaq istəyənlər çox nahaq cəhdlər göstərirlər" [Şeyx Şamil 200-illiyinə həsr olunmuş təntənəli mərasimdə H.Ə.Əliyevin çıxışı. - "Azərbaycan" qəzeti, 5 noyabr 1997-ci il].

Azərbaycanın tarixində ilk dövlətçilik qurumları Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış və onların əczaçılıq sahəsində də əsası qoyulmuşdur.

Qeyd olunmalıdır ki, o zamankı gənc Azərbaycan Xalq Cümhuriyyətinin gələcəyi dövlət mexanizminin təşkilindən və işləməsindən asılı idi.

Apardığımız ədəbiyyat axtarışının təhlili göstərdi ki, Sovetlər Birliyinin qurulmasının ilk illəri və xüsusən də, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq hakimiyyəti dövrlərində əczaçılıq tarixinə aid çox az faktlara və məlumatlara rast gəlmək olur.

İstifadə etdiyimiz tarixi əsərlərin və kitabların, demək olar ki, hamısında Azərbaycan Xalq Cümhuriyyəti dövrünə, ələxsus, əczaçılığa aid dəqiq məlumat verilməyib və müəlliflər arxiv materiallarından istifadə etməmişlər.

*)İlk dəfə məqalə "Azərbaycan Əczaçılıq Jurnalı", IV cild, 2004, №1, səh. 23-28 nəşr olunmuşdur. Məlumatların tarixi əhəmiyyətini və arxiv sənədlərinə əsaslandığını nəzərə alaraq, həmçinin Cümhuriyyətin 100-illiyi ilə əlaqədar məqalənin bəzi orfoqrafik, texniki düzəlişlərlə təkrar nəşr olunması məqsədəuyğundur. ***Red.***

Bunları nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Milli Arxiv İdarəsinin tabeliyində olan Azərbaycan Respublikasının Tarix Arxivi, Dövlət Arxivi və Elmi kitabxanasının sənədlərini müfəssəl sürətdə araşdıraraq, Azərbaycan Xalq Cümhuriyyəti dövründə əczaçılığa aid məsələlərin tədqiq olunmasını və dərmanşünaslıq üzrə mütəxəssislərə çatdırılmasını qarşımıza məqsəd qoyduq[*)].

Məlumdur ki, əczaçılıq geniş məfhum olaraq elm, təhsil və təcrübə kimi sahələri özündə cəmləşdirir. Şəxsi təşəbbüsümlə aparılmış araşdırmalarımızın nəticəsi kimi təqdim olunan bu məqalədə, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin əczaçılıq sahəsində fəaliyyətini açıqlamaq niyyətində olmuşuq.

Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin ilk sərəncamlarından, Nazirlər Kabinetinin təsis olunması və 6 oktyabr 1918-ci il tarixli 279 №-li əmri ilə nazir portfellərinin bölüşdürülməsi və Xalq Səhiyyə Naziri vəzifəsinə ali tibbi təhsilli azərbaycanlılardan olan Xudadat bəy Rəfibəyovun təyin edilməsi olmuşdur[1] [2]. Xalq Səhiyyə Nazirliyinin tərkibində ilk dəfə olaraq Tibbi-Əczaçılıq Şöbəsi (*Медико-Фармацевтический Отдел*) təşkil olunmuş, smeta və işçilərinin siyahısı təsdiq edilmişdir[2-5]. Həmin Tibbi-Əczaçılıq Şöbəsinin ilk müdiri, peşəkar əczaçı, provizor İvan Petroviç Punko olmuşdur[2,3]. Provizor İ.P.Punko Azərbaycan Xalq Cümhuriyyəti dövründə əczaçılıq xidmətinin təşəkkül tapmasında əvəzsiz rol oynamışdır. İ.P.Punko hələ çar Rusiyası dövründə Bakı qubernatorluğu Şəhər Aptek Anbarının müdiri (*заведующий городским аптечным складом*) vəzifəsində işləmişdir[6-8]. Provizor İ.P.Punkonun tabeliyində Tibbi-Əczaçılıq Şöbəsinin işçiləri çalışırdılar: kargüzar – P.S.Kazantsev, kargüzarın köməkçisi – S.E.Yegiazarov, hesabdar – A.İ.Soltanov, reminqtonist – L.K.Stepanova[3,9].

Tibbi-Əczaçılıq Şöbəsinin Kollegiyasının yaradılması qanuniləşdirilmişdir: üzvləri – P.İ.Sokolovskiy, V.İ.Şapiro, V.İ.Skublinskiy, P.V.Trubkoviç, İ.P.Punko[10]. Əczaçılıq sahəsində yaranmış problemləri Tibbi-Əczaçılıq Şöbəsinin Şurasının iclaslarında müzakirə edib, həll olunmasına çalışırdılar[11].

Azərbaycan Xalq Cümhuriyyəti Xalq Səhiyyə Nazirliyi Tibbi-Əczaçılıq Şöbəsinin müdiri, provizor İ.P.Punko Azərbaycan tarixində ilk dəfə Dövlət Apteki (*Государственная аптека*), Analitik və Bakterioloji Laboratoriyanın (*Аналитическая и Бактериологическая Лаборатория*) Qalen Preparatları Laboratoriyasının (*Лаборатория Галеновых Препаратов*), Mərkəzi Aptek Anbarı (*Центральный Аптечный Склад*) və Əczaçılıq Kurslarının (*Фармацевтические Курсы*) yaradılması, açılması, qeyd olunmuş müəssisələrin təchiz və saxlanması üzrə geniş, hərtərəfli bir sənəd hazırlamış, Xalq Səhiyyə Nazirinə təqdim etmiş və onun təqdimat məruzəsinin (*докладная записка*) əsasını təşkil etmişdir[12].

Zənnimizcə, bu cür həcmli, dəlillərlə dolğun, hərtərəfli təhlil olunmuş təqdimat məruzəsinin hazırlanmasında o dövrün yeganə əczaçılıq magistrı (həmin dövrdə, bir az sonra, Bakı Dövlət Darülfünunun professoru) İsaak Konstantinoviç Qolberqin[*)] iştirakı və köməyi istisna olunmur.

Həmin təqdimat məruzəsində gənc Azərbaycan dövlətinin əczaçılıq sahəsinin durumu, vəziyyəti, gələcəyi və inkişaf perspektivləri təhlil olunaraq, Nazirlər Sovetinin 30 dekabr 1918-ci il tarixli sərəncamına əsasən, hökümətin işlər idarəsi tərəfindən bu məsələlərlə əlaqədar müvafiq qanun layihəsinin hazırlanması və Nazirlər Sovetinə təqdim olunaraq Parlamentin iclaslarının birində baxılması üçün və-

---

*) - Araşdırılmaların aparılmasında bizə imkan yaratmış Azərbaycan Respublikası Dövlət Arxivi, Tarix Arxivi, Elmi kitabxana və qiraət zalının işçilərinə minnətdarlığımızı bildiririk.

*)) Jurnalın 2007 №2 sayının "İsaak Qolberq – 125" məqaləsində onun haqqında daha ətraflı məlumat verilmişdir.

1-Azərbaycan Respublikası Baş Arxiv İdarəsinin Elmi kitabxanası: "Собрание узаконений" стр. 213, с. 73

2-Azərbaycan Respublikası Dövlət Arxivi: fond 792 "Министерство Народного Здравия", siyahı 1, iş 13, 24 vərəq

3-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 27, 79 v.

4-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 219, 27 v.

5-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 220, 20 v.

6-Azərbaycan Respublikası Tarix Arxivi: f.389 "Бакинская городская управа", s.5 "Медико-санитарное бюро", iş 1073 "Городской аптечный склад", 168 v.

7-Azərbaycan Respublikası Tarix Arxivi: f.389, s. 5, iş 1153, 47 v.

8-Azərbaycan Respublikası Tarix Arxivi: f.389, s. 5, iş 1183, 133 v.

9-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 2, iş 109, 1 v.

10-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 208, 40 v.

11-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 209, 10 v.

12-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 195, 11 v.

satət qaldırmışdır. Təqdimat məruzəsində göstərilən məsələlər tarixi əhəmiyyətlidir və bəziləri bu gün üçün də aktuallığını itirməmişdir.

Baxmayaraq ki, Azərbaycan dili rəsmi dövlət dili elan edilmişdir, əsas rəsmi sənədlər, yazışmalar hələ də rus dilində aparılırdı. Odur ki, tanış olduğunuz arxiv materialları da rus dilindədir. Bununla əlaqədar, bu təqdimat məruzəsinin əhəmiyyətini nəzərə alıb, onun bəzi məqamlarını orjinalda olduğu kimi məqaləmizdə təqdim etməyi məqsədəuyğun hesab edirik.

***"Докладная Записка министра народного здравия об открытии в Баку центрального аптечного склада, государственной аптеки, галеновой, аналитической и бактериологической лабораторий, и об устройстве фармацевтических курсов с приложением сметы расходов по оборудованию и содержанию означенных учреждений."***

Preambulada Azərbaycan Cümhuriyyətinin gələcəyi, dövlət mexanizminin təşkili və qurulması, xalq səhiyyəsi və iqtisadi siyasətin formalaşmasında əczaçılığın əhəmiyyətindən bəhs olunur.

*Будущность Азербайджанской Республики несомненно заключается в быстрой мобилизации всех живых сил края для планомерного устройства и организации всего государственного механизма. Частицей этих сил является и фармация, которая играет, безусловно, значительную роль не только в охране народного здравия, но и в преуспевании экономической жизни государства. Самым ярким примером в этом отношении может нам послужить Германии, где когда-либо самые закупаемые аптеки Мерка, Шеринга и др. при умелой планомерной работе со временем превратились в крупнейшие мировые заводы, сыгравшие не последнюю роль и в мировой войне, так как решительно весь мир очутился в зависимости от германской химико-фармацевтической промышленности. Даже такие передовые страны как Франция, Англия, Америка и другие были во многих случаях в полной зависимости от Германии, так как химико-фармацевтическая промышленность в этих странах была в зачаточном состоянии и в течение мировой войны им волей-неволей необходима было потратить много работы и сил для создания и организации этой столь вайнот отрасли промышленности и если им это удалось, то главным образом благодаря тому, что у них оказалось все-таки достаточное количество научно-подготовленных специалистов. Что же касается России, то война, как всем известно - застала ее в этот отношении в самом плачевном состоянии. Немало народа погибло, да и сейчас погибает еще из-за отсутствия медикаментов и немало денег пришлось переплашет разным посредникам для получения недостающих медикаментов, инструментов и т.п. из других стран.*

Daha sonra, Azərbaycan diyarının neft, dərman bitkiləri, minerallar, zəngin kənd təsərrüfatının, maldarlıq və balıqçılığın geniş yayıldığını, mülayim iqlim şəraitini nəzərə alaraq həmin sahələrdə əczaçılıq sənayesi təməlinin qoyulması və inkişafı müzakirə edilir.

*Принимая во внимание, что Азербайджанский край обладает многими богатейшими природными ресурсами, разработка которых создает для государтва целый ряд чрезвычайно важных и прибыльных предприятий, - следует считать мобилизацию сил для использования этих богатств, первостепенной задачей правительства. Из нефтяных продуктов готовятся крайне важные медикаменты, исходный точкой коих является толуол и некоторые др. Эти так называемые полуфабрикаты, не только здесь на месте, но и во всей остальной России не получали дальнейшей обработки и наравне со всяким сырьем направлялись для окончательной обработки в Германию. Запежи почти химически чистой поваренной соли, глауберовой соли, серы, меди и многое др. местами здесь до того мощны, что могли бы вполне содержать не одно только свое предприятие. Местность Азербайджана далеко еще не вся обследована и потому можно с полной уверенностью предположить, что в недрах ее найдется и много других весьма ценных материалов. Климатические почвенные условия Азербайджана местами благоприятны для культивирования и сбора очень ценных лекарственных и прочих растений, для примера можно указать на шафран, дигиталис, белладонну, ландыш, валерьянку, растения, содержащие танин и т.д. Клещевина произрастает здесь в изобилии и дает хороший сорт касторового масла, так что может быть организовано в значительных размерах производство и этого весьма ценного продукта. Из семян хлопка можно получать хлопковое масло, которые при правильной обработке вполне заменит столь дорогое прованское масло. Овцеводство и скотоводство дают обильный материал для фабрикации ланолина, фосфора, ценных препаратов крови и проч. Рыбная промышленность может дать рыбий клей и др. все здесь в таком изобилии, что отмеченные отрасли могли бы служить весьма ценной статьей государства и сильно помочь ему в экономической борьбе за его существование.*

Azərbaycanda və, ümumən, müsəlman Şərq aləmində əczaçı kadrların olmaması ilə əlaqədar, Bakı şəhərində nümunəvi **Dövlət Aptekinin** yaradılması və onun nəzdində **əczaçılıq elmi-praktik kurslarının** təsis olunması təklif edilir.

*Принимая же во внимание, что у **мусульман** в этой области, т.е. фармации* (azərbaycanlılar nəzərdə tutulur-**müəll.**), *почти что нет ни одного активного работника, - первой задачей должно быть образование тем, или иным путем, кадров лиц, способных приложить свой ум и знание и на этом поприще. Подготовка этих специалистов может и должна происходить одновременно с открытием и оборудованием тех или иных, общественных учреждений, которые могли бы послужить опорой государства в его экономической борьбе с другими и потому к созданию всего необходимо приступить безотлагательно. Все аптеки и аптекарские магазины Азербайджана находятся сейчас не в мусульманских руках. Владельцам их безусловно чужды интересы народа и они стараются извлечь лишь возможно больше выгоды лично для себя. Заменить их хотя бы отчасти своими, пока нет возможности, потому что, здесь нет ни одного фармацевта мусульманина. Поэтому необходима возможно скорее создать кадры этих специалистов, могущих обслуживать в будущем свой родной край. Насколько известно, то и в Турции нет такого научного центра, где могли бы подготовиться юноши к фармацевтической деятельности. Баку, как крупной промышленный центр, мог бы выиграть в этом отношении значительную роль ни только для Азербайджана, но и для Закавказского края, Персии и прочих мусульманских стран. Чтобы приступить к этому делу необходимо немедленно открыть в г. Баку образцовую государственную аптеку и при этой аптеки организовать научно-практические курсы для фармацевтов. Такие аптеки как истые коррективы аптечного дела, принесли бы немалую пользу не только самой столице, но и могли бы служить и исходной точкой для обслуживания других частей государства.*

Dövlət Aptekinin nəzdində Qalen preparatları, Analitik, Bakteioloji Laboratoriyaların və Mərkəzi Aptek Anbarının təşkil olunması, dərman preparatları, başqa vasitələr və digər ləvazimatların gətirilməsi, alınması, yerləşdirilməsi, paylanması haqqında bəhs edilir və perspektivdə (5-6 ilə) ilk əczaçılıq kadrların köməyi ilə problemlərin həlli yolları göstərilir.

*Наконец, что же касается устройства Государственной аптеки, то это крайне желательно по следующим соображениям:*

*1/ Государственная аптека должна быть действительным коррективом и образцом для всех частных аптек города, урегулировать деятельность которых только одними распоряжениями едва ли возможно.*

*2/ Аптека должна быть образцовой школой для подготовки специалистов из местного населения, столь необходимых для дальнейшего благоустройства молодой Республики.*

*3/ Лаборатории галеновая, аналитическая и бактериологическая должны давать в достаточном количестве все необходимые образцово приготовленные галеновые препараты не только для больничных и санитарных учреждений г. Баку, но и для лечебных заведений всего государства, так как приготовление многих препаратов на местах, т.е. в местных аптеках хотя и возможно, но в малых количествах, обходится дорого и убыточно.*

*Принимая во внимание, что Государственная аптека, на первом плане будет обслуживать население г. Баку, -полагаю, что Городское Самоуправление передаст в распоряжение Министерства Народного Здравия все аптечные штанглазы и разные приборы, заготовленные и полученные из Германии еще в 1904 г., когда город предполагал открыть свою собственную аптеку с вольным отпуском лекарств и каковые штанглазы лежат у города до сего времени без всяких употреблений. Подробно, сметы аптеки и лаборатории при сем прилагаются.*

*Как Центральный аптечный склад, аптека, так и все лаборатории должны служить фармацевтическим курсам, слушатели которых во всех названных учреждениях должны проходить свой практический стаж.*

*Наиболее подходящим местом для устройства аптеки, лабораторий и курсов является дом Лалаевой - угол Воронцовской и Нэлевской улиц против Парапета* (hal-hazırda burada 1 №-li aptek yerləşir-**müəll.**).

Təqdimatda göstərilən bir çox müddəalar sonradan, Sovet hakimiyyəti dövründə, respublikada əczaçılığın bir çox sahələrinin yaradılması və inkişafında öz tətbiqini tapmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, hələ 1918-ci il oktyabrın 8-də 283 №-li "Bakı şəhərində dövlət apteki və əczaçılıq kursları açılması haqqında" sərəncam qəbul edilmişdir [2].

Bu sərəncamı da orjinalda olduğu kimi nəzərinizə çatdırırıq:

**"8 октября 1918 года. №273 г. Баку**

**Постановление об учреждении Государственной аптеки и фармацевтических курсов.**

*Одобрить проект министра народного здравия об открытии в Баку Государственной аптеки и фармацевтических курсов"*[13]

Qeyd etməliyik ki, hələ 1904-cü ildə Çar hökümətı tərəfindən Bakıda şəhər aptekinin açılması nəzərdə tutulmuşdur[14]. Bunun üçün Almaniyadan müxtəlif cihazlar və digər ləvazimat (ştanqlazlar və s. və i.) gətirilmişdir[12].

Təsis olunan Dövlət Apteki gənc Azərbaycan dövlətinin milli mütəxəssis hazırlanması üçün nümunəvi tədris bazası olmasına zəmin yaratmış olurdu.

Yaradılan Analitik Laboratoriyanın əsas qayəsi – istehsal, idxal və satışda olan dərman preparatlarının keyfiyyətinə nəzarətin təşkil edilməsindən ibarət olmuşdur. O dövrün tələblərinə uyğun olaraq, Analitik Labortoriyada məhkəmə-tibbi və digər analizlərin aparılması, həmçinin, əczaçılıq təhsilli müdavimlər üçün nümunəvi təcrübə dərslərinin keçirilməsi nəzərdə tutulmuşdur[2-5]. Bir əsrə yaxın zamanın keçməsinə baxmayaraq bu məsələlərin həlli problemləri hələ də aktualdır.

Yaradılmış Bakterioloji Laboratoriyada, nəinki bizim ölkə, həm də bütün Qafqaz üçün həyati cəhətdən vacib zərdabların və peyvəndlərin hazırlanması təşkil olunmuşdur[2-5,11]. Dövlət Bakterioloji Laboratoriyasının müdiri vəzifəsinə **Lazım bəy Hüseyinbəyzadə** təyin edilmişdir[14].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulmuş Qalen Preparatları Dövlət Laboratoriyasında müxtəlif cövhərlərin, ekstraktların, həblərin və s. və i. Hazırlanması Bakı şəhəri və bütün Cümhuriyyət səhiyyə müəssissələrini təmin etmək nəzərdə tutulmuşdur[2-5,15-18]. Bu laboratoriyanın ilk rəhbəri, provizor **Stanislav Aleksandroviç Çarnovskiy** olmuş, onun köməkçisi vəzifəsində Derpt Əczaçılıq İnstitutunun məzunu, provizor **Fyodor İvanoviç Frey** və başqaları[3,15-18].

Bunlardan başqa, əsas olaraq, respublikanın dərman preparatları ehtiyatının yaranması naminə Mərkəzi aptek anbarının (*Центральный аптечный склад*) təşkili, dövrün mütləq tələblərindən birinə çevrilmişdir. Mərkəzi Aptek Anbarının təchizi və doldurulması üçün yerli bazarda olan dərman vasitələri digər tibbi ləvazimat təcili olaraq alınırdı, yoxlanılırdı və yerləşdirilirdi, sonralar isə ölkə səhiyyə müəssisələrinin ehtiyaclarının ödənilməsi üçün bölüşdürülüb paylanırdı[2-5,12,19].

Mərkəzi Aptek Anbarının ştat vəzifələrində aşağıdakı şəxslər işləmişlər: müdir – provizor **Mixail Mixayloviç Amaspür** (Moskva İmperator Universitetinin məzunu)[20], müdir müavini – provizor **Samuil (Şmuyel) Markoviç Qoronik** (sonralar müdir vəzifəsinə təyin edilmişdir)[19], müdir köməkçisi – provizor **Keykubad Seyidov**, hesabdar – **N.N.Yantsen**, droqist – **M.A.Mirkin** və başqaları[3].

O vaxtlar republikamızda işləyən əczaçı kadrların əksəriyyəti digər millətlərin nümayəndələri idilər. Aşkar etdiyimiz arxiv sənədlərindən məlum olur ki, o zamanlar yeganə azərbaycanlı provizor **Keykubad Seyidov** olmuşdur. O, Moskva Dövlət Universitetinin provirzorantı olmuş, əczaçılıq kurslarını bitirdikdə Moskva şəhərinin nümunəvi aptekində - *V.K.Ferreyn aptekində* üç il işləmiş, sonra isə Vətəninə dönmüş və Mərkəzi Aptek Anbarınınn rəis müavini vəzifəsinə təyin edilmişdir[21].

Mərkəzi Aptek Anbarının beynəlxalq ticarət əlaqələrinə gəldikdə, bir sıra Rusiya, Gürcüstan şirkətləri ilə yanaşı, Amerika korporasiyası ilə də alış-veriş yapılırdı: American Trade Corporation -: ni-

---

13-Azərbaycan Respublikası Baş Arxiv İdarəsinin Elmi kitabxanası: "Собрание узаконений" стр. 217, с. 74

14-Azərbaycan Respublikası Tarix Arxivi: fond 389 "Бакинская городская управа", siyahı 5 "Медико-санитарное бюро", iş 337, 8 v.

15-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 18, 62 v.

16-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 230, 26 v.

17-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 129, 15 v.

18-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 2, iş 121, 6 v.

19-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 37, 6 v.

20-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 2, iş 23, 35 v.

21-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 2, iş 102, 3 v.

zamnamə dəyəri 20.000.000 dollar (*o zaman bu çox böyük məbləğ idi* – **müəll.**)[22].

Qeyd olunanları nəzərə alaraq sübut edilmişdir ki, yaradılan əczaçılıq müəssisələri təşkil olunan əczaçılıq kurslarının müdavimləri üçün əsas nəzəri biliklərinin və təcrübə toplanması naminə həddindən ziadə vacib və əhəmiyyətlidir.

Təsis olunmuş əczaçılıq kurslarında dərs deyən müəllimlərə saatına 25 rubl məbləğində zəhmət haqqı kəsilmişdir[2].

Önəmlisi bundan ibarətdir ki, dövrün səhiyyə rəhbərlərinin uzaqgörənliyi sahəsində yerli dərman bazarını təchiz etmək məqsədi ilə, indiki dillə desək, fiziki şəxslər (**Abdullabəy Dadaşov**, **İ.R.Qrinqaus**, **Əsəd Məmmədov**, provizor **Mixail Markoviç Bıkov**, doktor **Djorbəy Urusov**) xarici dövlətlərdən dərman vasitələri respublikaya idxal etmək üçün, tibbi-əczaçılıq şöbəsinin təqdimatı əsasında Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin (Səhiyyə Nazirliyinin) ticarət nümayəndələri (контрагенты правительства (Минздрава) Азербайджанской Демократической Республики) hesab edilmişlər[23].

Yuxarıda göstərilən təqdimat məruzəsində yazılanlardan məlum olur ki, o zaman Azərbaycanda əczaçılıq sənayesinin təməlini qoymaq üçün çox əlverişli bir məqam var idi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti Xalq Səhiyyə Nazirliyinin Tibbi-Əczaçılıq Şöbəsinə bir neçə dəyərli təkliflərlə müxtəlif iş adamları müraciət etmişdilər.

Məsələn, "***Ağasiyev Qardaşlarının Ticrət Evi***" gənəgərçək toxumlarından dərman preparatı olan *gənəgərçək yağının – "Oleum Ricini"*alınmasının rentabelli texnologiyasını təklif edirdilər (100 pud toxumlardan 20 pud)[15].

Almaniyanın Saksoniya (Türingiya) vilayətində təcrübə keçmiş mühəndis – kimyaçılar **B.Belinskiy** və **Şahid Hüseynov** Bakı şəhərində nitrat ($HNO_3$) və xlorid (HCl) turşularını istehsal edən, bütün parametrləri ilə o zamanın tələblərinə cavab verən zavodun açılmasını təklif edirdilər və onlara Sənaye Nizamnaməsinin müddəalarına əsasən "*Nobel qardaşları Cəmiyyətinin*" turşular zavodunun baş kimyaçısı, finlandiyalı **A.P.Liperinin** nəzarəti altında zavodun inşasına icazə verilmişdir[24].

Provizor-bakterioloq **Yakov B.Qutman** 5 (beş) növ: "Uşaq" (*Детское*), "Qətranlı" (*Дегтярное*) – tərkibində 5% Pix Betula; "Karbollu" (*Карболовое*) – tərkibində 3% fenol; "Boraks-timolol" (*Борнотимоловое*) – tərkibində 2% boraks-timol və "Süleymanili" (*Сулемовое*) – tərkibində 0,2 % *süleymani* saxlayan sabunların istehsalı və satılmasına icazə almışdı. Hətta o, bu sabun növlərinin etiketlərinin eskizlərini də Azərbaycan türkcəsində Səhiyyə Nazirliyinə təqdim etmişdi[25].

Əczaçılıq sənayesi, təcrübəsi və xidməti üçün lazım olan hiqroskopik pambıq, cuna və bez kimi vasitələri **Hacı Zeynalabdin Tağıyevin** fabrikindən alınması razılığına gəlmişdilər[26].

Önəmli bir məqamı da qeyd etmək lazımdır: Azərbaycan Xalq Cümhuriyyətinin dövlət dili – **Azərbaycan dilinin** rəsmi sürətdə tətbiq edilməsinin nümunələri kimi Mərkəzi Aptek Anbarı, Dövlət Apteki, Analitik, Bakterioloji və Qalen preparatları Dövlət Laboratoriyaların lövhə (*вывеска*) və möhürlərinin (*печать*) məhz Azərbaycan türkcəsində olmasına arxiv sənədlərində rast gəlmişik[27].

Azərbaycan xalq Cümhuriyyəti hökümətinin əczaçılıq xidmətini vahid sistem şəklində birləşdirilməsi fikirləri mövcud idi. Belə ki, hələ çar Rusiyası dövründə Bakıda yerləşən apteklər Bakı quberniyasının həkimi, Gəncədə yerləşən apteklər isə - Gəncə quberniyası həkiminin İdarələrinə müvafiq sürətdə tabe idilər.

Azərbaycan Xalq Cümhuriyyəti Xalq Səhiyyə Nazirliyinin qərarına əsasən, respublikada yerləşən bütün apteklər öz fəaliyyəti, ştatı və digər məsələlər üzrə hesbatlarını birbaşa Tibbi-Əczaçılıq Şöbəsinə təqdim etməli olmuşlar[28].

---

22-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 266, 110 v.

23-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 206, 71 v.

24-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 271, 4 v.

25-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 270, 5 v.

26-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 246, 20 v.

27-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 252 "Государственный аптечный склад" 200 v.

28-Azərbaycan Respublikası Dövlət Arxivi: f.792, s. 1, iş 243 "О передаче дел по фармацевтической части из Гянджинского Губернского Правления в медико-фармацевтический отдел Министерства Народного Здравия Азербайджанской Демократической Республики", 3 v.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, ondan əvvəlki çar dövründəki Rusiya imperiyasının digər bölgələrində olduğu kimi – şəxsi özəl apteklərin çoxluğu ilə əlaqədar, diyarımızın Bakı və Gəncə şəhərlərində "Aptekçilərin Cəmiyyəti" (*Общество Аптекарей г. Баку и его района*) və həmin apteklərdə işləyən əczaçıların "Həmkarlar İttifaqı" (*Профессиональный Союз Фармацевтов и служащих аптек г. Баку и его района*) fəaliyyət göstərirdi[29].

O vaxtlar, bütün Rusiya imperiyasının böyük şəhərlərində olduğu kimi, Bakıda da inqilab xofu və təlatümü yayılmaqda idi. Belə ki, əczaçılıq xidmətində çalışan əczaçılar və digər işçilər tətillər keçirib, öz **İnsan** haqları uğrunda mübarizə aparırdılar. Bu halda, fəaliyyət göstərən iki qurum, yəni "Aptekçilərin cəmiyyəti" və "Əczaçılar və aptek işçilərinin Həmkarlar İttifaqı" arasında ortaq məxrəcə gəlib "Ümumi Sövdələşmə"ni (*Третейское Соглашение*) imzalayıb, aptek sisteminin iflicinə son qoyurdular[30,31].

Apardığımız araşdırmalar nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti dövründə özəl, fərdi əczaçılıq xidmətinin fəaliyyətinə dair çoxlu arxiv sənədləri aşkar olunmuşdur. Bu istiqamətdə araşdırmaların davam etdirilməsi, yeni məlumatların əldə olunması, onların bu günki müstəqilliyimiz baxımından təhlili əczaçılığın inkişafı üçün çox əhəmiyyətlidir.

**Ədəbiyyat***


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər) Parlamenti (stenoqrafik hesabatlar). I cild, Bakı, 1998.
2. Азербайджанская Демократическая Республика (19181-1920 г.г.). Законодательные акты (сборник документов). Баку, изд-во "Азербайджан", 1998.


## О ДЕЯТЕЛЬНОСТИ ПРАВИТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ (1918-1920 гг.) В ОБЛАСТИ ФАРМАЦИИ

**Афиз М. Алиев, Рафаил В. Садыгов**

**Ключевые слова**: *Азербайджанская Демократическая Республика, 1918-1920 годы, фармация*

Впервые на основе выявления, ознакомления и анализа многочисленных архивных материалов освещается деятельность правительства Азербайджанской Демократической Республики (1918-1920 гг.) в области фармации.

## ABOUT AZERBAIJAN DEMOCRATIC REPUBLIC (1918-1920) GOVERMENT ACTIVITY IN THE FIELD OF PHARMACY

**Hafiz M. Aliyev, Rafail V. Sadigov**

**Key word**: *Azerbaijan Democratic Republic, 1918-1920 years, pharmacy*

For the first time, based on revealing, acquaintance and analysis of the numerous archive materials about the performance of Azerbaijan Democratic Republic in the field of pharmacy (1918-1920) have been highlighted in the article.

**©Hafiz M. Əliyev, 2004**
**©Rafail V. Sadıqov, 2004**

*Tarixi sənədlərin əhəmiyyətini nəzərə alaraq məqalənin təkrar nəşrində bu mənbələr saxlanılmış, ilkin nəşrdə olan yardımçı ədəbiyyatlar siyahıya salınmamışdır. ***Red.***